

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 1 (20.902)

2 yanvar 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Naxçıvan Hərbi Hospitalına bayram sovqatı aparılmışdır





Naxçıvanda əsası qoyulan Dünya Azərbaycanlılarının Həmrəylik Günü xalqımızın milli birliyinin təqviminə çevrilmişdir. Milyonlarla insanı vahid ideologiya ətrafında həmrəy edən bu bayram bütövlük və bərabərliyin vacib formulu olan xalq-ordu birliyinin də əsasını təşkil edir. Muxtar respublikamızda həmrəylik bayramının əsgərlərimizlə birlikdə keçirilməsi artıq ənənəyə çevrilmişdir. Hər il bayram günlərində idarə, müəssisə və təşkilatların kollektivlərinin, ictimaiyyətin nümayəndələrinin vətənimizin sadiq keşikçilərinə maddi və mənəvi dəstək olması onların mübarizlik əzmini daha da artırır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Hərbi Hospitalına gəlmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri hərbi qulluqçuların səhhəti, müalicəsi, dərman təchizatı və qidalanması ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, muxtar respublikada yerləşən hərbi hissələrdə əsgərlərin döyüş hazırlığının gücləndirilməsi ilə yanaşı, şəxsi heyətin sağlamlığının qorunması da diqqət mərkəzində saxlanılır. Hərbi qulluqçular mütəmadi olaraq tibbi müayinədən keçirilir, xəstəliklərin qarşısı vaxtında alınır. Hərbi hissələrdə zabit və əsgərlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, qidalanmaya ciddi diqqət yetirilməsi və gigiyenik qaydalara əməl olunması xəstələrin sayının azalmasına səbəb olmuşdur. Hazırda hospitalda 18 xəstə vardır. Hərbi hospitalın lazımi dərman vasitələri və tibbi ləvazimatlarla təminatı müayinə və müalicə prosesinin daha effektli aparılmasına imkan verir.

Ali Məclisin Sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan hərbi qulluqçuların bayramlarını təbrik etmiş, onlara tezliklə sağalıb xidmət yerlərinə qayıtmalarını arzulamışdır.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.

# Naxçıvan şəhərindəki hərbi şəhərcikdə yeni Xidmət Kompleksi istifadəyə verilmişdir





Bu gün ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasi xətt iqtisadiyyatın dinamik inkişafı ilə yanaşı, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsinə və döyüş qabiliyyətinin artmasına da səbəb olmuşdur. Artıq peşəkar şəxsi heyətə malik olan Azərbaycan Ordusu müstəqilliyimizin və dövlətçiliyimizin yeganə qarantıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Bizim güclü siyasi iradəmiz, güclü iqtisadiyyatımız, güclü ordumuz vardır. Ordu dövlətçiliyi, bizim seçimimizi, müstəqil siyasətimizi qoruyur".***

Muxtar respublikamızda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər çərçivəsində hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır, yeni sosial təyinatlı obyektlər tikilir.

Dekabrın 31-də Naxçıvan şəhərindəki 1 nömrəli hərbi şəhərcikdə yeni Xidmət Kompleksi istifadəyə verilmişdir.

Açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi qulluqçuları və tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək demişdir: "Bu gün ölkəmizdə Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və himayəsi ilə ordu quruculuğu sahəsində mühüm işlər görülür. Artıq Azərbaycanda müasir ordu yaradılmışdır. Ordunun maddi-texniki təminatı, hərbçilərin xidməti və mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhərindəki hərbi şəhərcikdə istifadəyə verilən yeni Xidmət Kompleksi də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır".



"Azərbaycanda mövcud olan dövlət-ordu-xalq birliyi sarsılmazdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını böyük təntənə ilə qeyd edir. Hər il bu əlamətdar bayram günlərində ordu ilə həmrəylik nümayiş olunur, xalqımız ordu birləşmə və hissələrinə gedərək hərbi qulluqçuların bayramlarını təbrik edirlər. Çünki dövlət-ordu-xalq birliyi olan ölkədə sabitlik və inkişaf da davamlı olur. Bu gün Azərbaycanda sabitlik, davamlı inkişaf, dövlətçiliyimizi və müstəqilliyimizi qoruyan Milli Ordumuz vardır.

Ardı 2-ci səhifədə

Ali Məclisin Sədri hərbi qulluqçulara xidməti vəzifələrinin yerinə yetirilməsində uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, son illər şəhərcikdə hərbçi ailələrinin normal yaşayışının təmin edilməsi məqsədilə ardıcıl tədbirlər görülmüş, uşaq bağçası və məktəb binası tikilmiş, yaşayış binalarının kommunal-məişət şəraiti yaxşılaşdırılmışdır. Bu gün isə şəhərcikdə yeni Xidmət Kompleksi istifadəyə verilir. 3 mərtəbəli kompleksdə ərzaq və sənaye mallarının satışı mağazaları, o cümlədən uşaq-əyləncə mərkəzi və kafe fəaliyyət göstərir. Mağazalarda yerli məhsulların satışına üstünlük verilir. Burada qadın gözəllik salonu, mətbəx, anbar və xidmət otaqları vardır.

Kompleksin ikinci mərtəbəsində poçt bölməsi yaradılmışdır. Bölmədə danışıq və internet kartlarının, gündəlik mətbuatın satışı həyata keçiriləcəkdir. Eyni zamanda burada bank xidmətinin göstərilməsi də nəzərdə tutulmuşdur. Bu da sakinlərin rahatlığının təmin olunmasına imkan verəcəkdir.

Binada fərdi qazanxana quraşdırılmış, ətrafı abadlaşdırılmış və ərazidə park salınmışdır.

# 16 hərbi qulluqçuya yeni mənzillər verilmişdir







Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” 2011-ci il 28 dekabr tarixli Fərmanına uyğun olaraq, ölkəmizdə hərbi qulluqçuların mənzil-məişət şəraiti yaxşılaşdırılır, zabit-gizir ailələri yeni mənzillərlə təmin olunurlar.

Dekabrın 31-də Naxçıvan şəhərində istifadəyə verilmiş yaşayış kompleksində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş 16 hərbi qulluqçuya yeni mənzillər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənzillə təmin olunan hərbi qulluqçuları və onların ailələrini təbrik edərək demişdir: “Ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər çərçivəsində hərbçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması mühüm yer tutur. Qüsursuz xidmət edən hərbi qulluqçuların mənzillərlə təmin olunması ölkə Prezidentinin bu sahəyə göstərdiyi diqqət və qayğının nəticəsidir. Bu gün mənzillərlə təmin olunan hərbi qulluqçuların xidməti fəaliyyəti ordu sıralarında xidmət keçən digər zabit, gizir və əsgərlər üçün nümunə olmalıdır”.

Ali Məclisin Sədri hərbçi ailələrini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmişdir.

Mayor Cahangir Şirinov və hərbçi ailəsi adından Almaz Rəcəbli yeni mənzillərlə təmin olunmalarına görə minnətdarlıqlarını bildirmişlər.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, isitmə, soyutma və yanğından mühafizə sistemləri ilə təmin olunan mənzillərdən 14-ü üçotaqlı, 2-si isə ikiotaqlıdır. Hər birinin sahəsi 139 kvadratmetr olan mənzillərdə lazımi kommunal-məişət şəraiti yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunmuşdur





Artıq tərəqqi və uğurlarla dolu olan “Heydər Əliyev ili” – 2013-cü il tarixə qovuşdu. Hər gün dəyişən, müasirləşən Azərbaycanımızda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bu il ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90 illiyinin dövlət səviyyəsində qeyd olunması, xalqımızın prezident seçkilərində növbəti dəfə dahi şəxsiyyətin siyasi xəttini dəstəkləməsi ilə əlamətdar oldu. İqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlər, əhalinin rifahının yüksəldilməsi istiqamətində görülən işlər növbəti ili bayram əhval-ruhiyyəsi ilə qarşılamağa imkan verir. Muxtar respublika sakinləri muxtariyyatimizin 90 yaşını qeyd edəcəyimiz 2014-cü ildə də daha böyük uğurlara nail olmaq əzmindədirlər.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı Naxçıvan Muxtar Respublikasında yüksək coşqunluq və bayram gəzintisi şəraitində qeyd edilmişdir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki mərkəzi meydanda bir neçə gün əvvəldən bayramların gəlişi münasibətilə yolka bəzədilmişdir. Dekabrın 31-də axşam saatlarından başlayaraq Naxçıvan şəhərinin əhalisi bayram əhval-ruhiyyəsi ilə meydana toplaşmışdı. Vətənimizi, həmrəyliyi, milli dəyərləri, Yeni ili tərənnüm edən mahnıların sədaları meydana toplaşan minlərlə sakinə xoş ovqat bəxş etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda və digər iki yerdə quraşdırılan monitorlar vasitəsilə canlı yayımlanmışdır. Azərbaycan xalqına səmimi təbriklərini çatdıran dövlətimizin başçısı demişdir: ***“Dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün güclü Azərbaycan dövləti vardır. O dövlət ki, öz vətəndaşları üçün çalışır, vətəndaşlarının qayğıları ilə yaşayır. Müasir, dinamik, demokratik dövlət ki, bu gün bütün azərbaycanlıların Vətənidir”.***

Gecə saatlarında – yeni ilin ilk nəfəsi duyulanda çoxminli şəhər sakinləri möhtəşəm bayram atəşfəşanlığını seyr etmişlər.

*Ardı 3-cü səhifədə*

# Naxçıvan şəhərində bayram şənliyi keçirilmişdir





Yeni ili böyük sevinc hissi ilə qarşılayan xalqımız əmindir ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosial-iqtisadi inkişaf xətti 2014-cü ildə də Azərbaycanın davamlı yüksəlişinin təminatına çevriləcək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə böyük nailiyyətlər qazanacaqdır.

Yanvarın 1-də ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində də bayram şənlikləri keçirilmişdir.

Yeni ilin ilk günündə Naxçıvan şəhərinin əhalisi ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdəki mərkəzi meydanda keçirilən bayram şənliyinə toplaşmışdı. Vətənimizi, yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, yolka ətrafında Şaxta babanın, Qar qızın çıxışları, Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklərin göstərilməsi şənliyə gələnlərdə xoş ovqat yaratmışdır.

Mərkəzi meydanın bir hissəsində 50-dən artıq istehsal və xidmət müəssisəsi tərəfindən şəhər sakinlərinə ictimai-iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyinin keçirildiyi mərkəzi meydana gəlmiş, bayram yolkası ətrafında toplaşmış uşaqların və şəhər sakinlərinin Yeni il bayramını təbrik etmişdir.

Ali Məclisin Sədri ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmış, uşaqlara hədiyyələr vermişdir.

Yeni il şənliyi bayram günlərində davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Xalqa, dövlətə xidmət nümunəsi



***20-ci əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri də əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevdir. Dərin ağıl və düşüncəyə, rəhbərlik etmək qabiliyyətinə və zəngin həyat təcrübəsinə malik olan Əziz Əliyev siyasi fəaliyyəti ilə dövlət xadimi səviyyəsinə qədər ucalmışdı. Onun adı Azərbaycan dövlətçilik tarixinə çoxşaxəli fəaliyyəti və müstəsna xidmətləri ilə yazılmışdır.***

Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə almış, 1908-ci ildən sonra isə Rusiyanın Çita şəhərindəki gimnaziyada oxumuşdur. 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında təhsil alan Əziz Əliyev burada əla qiymətlərlə bitirdikdən sonra Rusiyanın Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasına qəbul edilmişdir. Lakin 1918-ci ildə İrəvana gələn Əziz Əliyev burada dəhşətli mənzərə ilə üzləşmiş, erməni daşnaklarının amansız qəddarlıqlarına tab gətirməyib ailəsini çətinliklə Naxçıvanın Şərur rayonuna gətirmiş, bir müddət Şərurda qaldıqdan sonra Şahtaxtı kəndinə köçmüşdür.

Ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevin Sankt-Peterburqa qayıdaraq təhsilini davam etdirməsinə imkan verməmişdir. 1920-ci ilin may ayında İrəvanda məskən salmış daşnak qoşunları şimaldan gələn bolşevik havadarlarının birbaşa dəstəyi ilə silahlı hücuma keçərək Şərur rayonunu, o cümlədən Şahtaxtı kəndini yerlə yeksan edərək amansız qırğınlar törətmişlər. Qanlı qırğından salamat çıxa bilən və didərgin düşən Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi erməni zülmünə tab gətirməyərək Arazı keçib İranın Ərəblər kəndinə sığınmış, 1921-ci ildə yenidən Şahtaxtı kəndinə qayıtmışdır. Əziz Əliyev 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışmışdır.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçmüşdür. Bundan sonra onun həyatının yeni mərhələsi başlanmışdır. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin Ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarları Şurasının katibi vəzifələrini icra etmişdir. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini də indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsində böyük uğurla davam etdirmiş, 1927-ci ildə universiteti bitirərək Daxili xəstəliklər kafedrasında işləməyə başlamışdır. Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərmiş, 1929-1932-ci illərdə isə Azərbaycan Klinik İnstitutunun rektoru olmuşdur.

Əziz Əliyev Azərbaycanda səhiyyə işinin təşkilinə xüsusi diqqət yetirmiş, onun bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunmuşdur. O, Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, xalq səhiyyə komissarı və digər vəzifələrdə çalışarkən respublikanın bütün rayonlarını qarış-qarış gəzmiş, bu sahədə problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görmüşdür. Həm özünə, həm də başqalarına qarşı son dərəcə tələbkar olan Əziz Əliyev bütün həyatı boyu ölkəmizdə tibb elminin inkişafına, yüksəkixtisaslı kadrların hazırlanmasına çalışmışdır. Təsadüfi deyil ki, Azərbaycan həkimlərinin ustad müəllimi hesab edilən görkəmli alimin həyatının Azərbaycan Tibb Universiteti ilə bağlı parlaq səhifələri respublikanın tibb ictimaiyyəti, səhiyyə işçiləri, professor-müəllim heyəti və tələbə kollektivi üçün nümunə olacaq böyük bir ömür yoludur.

1930-cu il iyun ayının 19-da indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun (ADTİ) yaradılması və bundan sonrakı çətin mərhələlərdə institutda rəhbərlik etmək böyük cəsarət tələb edirdi. Əziz Əliyev bu illərdə ADTİ-nin yaradılmasının təşkilati işlərinin yerinə yetirilməsində mühüm xidmətlər göstərmiş, 1932-ci il iyunun 1-dən etibarən həmin institutun rektoru vəzifəsində çalışmağa razılıq vermişdir.

Həmin illərdə bir tərəfdən respublikada yüksəkixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbi ədəbiyyatın və dərs vəsaitlərinin azlığı, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması və digər məsələlər həllini gözləyən problemlər idi. Bu problemlərin aradan qaldırılması üçün Ə.Əliyev rahatlıq bilmədən çalışmış, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirmiş və beləliklə, ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələrin yazılmasına nail olmuşdur. Məhz bu səylərin nəticəsi olaraq, 1932-1935-ci illər ərzində Əziz Əliyevin rəhbərliyi altında Azərbaycan dilində 55 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin istifadəsinə verilmişdir. Bu, o dövrün texniki imkanları müqabilində çox böyük göstərici idi. Ə.Əliyevin təşəbbüsü və hünərpərvərliyi ilə işıq üzü görən əsərlərdən özünün müəllifi olduğu və səhiyyə sahəsində ana dilində ilk elmi nəşrlərdən hesab edilən "Klinik analizlər" kitabı, o cümlədən K.Ə.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəyovanın "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya" kimi dərslikləri, M.A.Mirqasımovun, M.A.Topçubaşovun, M.M.Mirsəlimovun, M.Ə.Əfəndiyevin, M.Məmmədovun və başqalarının çap olunan elmi əsərləri Azərbaycanın tibb tarixində ən qiymətli nəşrlərdəndir. Fərəhli haldır ki, bu kitablar indi də öz dəyərini saxlayır. Bundan başqa, professor Ə.Əliyevin təşəbbüsü ilə 1933-cü ildə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapına da başlanılmışdır. Hazırda bu qəzet "Təbib" adı ilə nəşr olunur.

Ə.Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışmağından asılı olmayaraq, elmi axtarışlarını bir an belə dayandırmamışdır. O, institutu bitirəndən iki il sonra – 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. Əziz Əliyevin doktorluq dissertasiyası Azərbaycanda SSRİ Elmlər Akademiyasının, ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən ilk dəyərli elmi iş olmuşdur. Əziz Əliyev 1941-ci il mayın 13-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifələrinə seçilmişdir.

Görkəmli alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunmuşdur. Onun elmi fəaliyyəti çoxşaxəli idi. Təsadüfi deyil ki, akademik Mustafa bəy Topçubaşov Əziz Əliyevi Azərbaycan səhiyyəsinin inkişaf tarixinin bir mərhələsi adlandırmışdır. Bu mərhələ böyük və məsul bir dövrü əhatə edir. O həmin dövrdür ki, səhiyyə sahəsində böyük və genişmiqyaslı işlər görülür, beləliklə, Azərbaycanın səhiyyəsi dirçəlir və ayağa qalxır, milli kadrların böyük dəstəsi hazırlanırdı.

1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə "Tibb şəhərciyi"nin inşasına başlanılmışdır. Sonralar həmin şəhərcikdə tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikilmiş və bu iş ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə uğurla başa çatdırılmışdır. Görkəmli alim hər il Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edər, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradardı. Həmin gənclərin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşaraq müəllimlərinin yolunu davam etdirmişlər. 1936-1940-cı illərdə ölkəmizdə görkəmli alimin fəal iştirakı ilə malyariya və traxomaya qarşı mübarizəyə başlanılmışdır.

Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, görkəmli alimin ictimai fəaliyyəti də Vətənə, xalqa sədaqətlə xidmətdən ibarət olmuşdur. O, 1941-1942-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilmişdir. Əziz Əliyev 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdir. Ə.Əliyev I-II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir. O həmçinin Azərbaycan SSR Ali Sovetinin I-III çağırış, Dağıstan MSSR Ali Sovetinin II çağırış deputatı olmuşdur.

Əziz Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri görkəmli həkim və alim, əla səhiyyə təşkilatçısı, səriştəli rəhbər və təcrübəli dövlət xadimi kimi yüksək qiymətləndirilmişdir. O, "Qırmızı Əmək Bayrağı" ordeni, "I dərəcəli Vətən müharibəsi" ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar və fəxri fərmanlarla təltif edilmişdir. 1960-cı ildə görkəmli alimə "Azərbaycan SSR-in əməkdar həkimi" fəxri adı verilmişdir. Rektoru olduğu Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə görkəmli dövlət və elm xadiminin adını daşıyır.

Professor Əziz Əliyevin sevimli həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri mehriban övladları valideyn tərbiyəsinə layiq və sadiq olmuşlar. Ən əhəmiyyətlisi də odur ki, onlar atalarının himayəsinə arxalanmadan, heç kimdən kömək

*Ardı 4-cü səhifədə*

gözləmədən öz istedadları, bacarıqları hesabına ucalmış və hər biri öz peşəsi sahəsində uğurlu nailiyyətlər qazanmışlar.

1998-ci il may ayının 14-də görkəmli alim, ictimai xadim Əziz Əliyevin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Yubiley tədbirində çıxış edən ümummilli liderimiz Heydər Əliyev alimin şəxsiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O lap əvvəldən qeyri-adi insan idi. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü".***

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu elmin himayə olunması, xalqımızın dövlət və elm xadimlərinin elmi və nəzəri irslərinin yaşadılması ideyasının davamı olaraq, ölkə Prezidenti cənab İlham Əliyev 2006-cı il dekabr ayının 5-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyi Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunmuşdur. Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov professor Əziz Əliyevin keçdiyi həyat yolunu nəsillərə nümunə olacaq fəaliyyət, milli tariximizə imzasını qoyan görkəmli dövlət xadimi kimi dəyərləndirərək demişdir: ***"Əziz Əliyev dərin biliyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir insan kimi nəinki səhiyyəmizin inkişafına böyük töhfələr vermiş, eyni zamanda dövlət idarəçiliyində kadrlarla işləməyin, kütləni səfərbər etməyin, rəhbər-xalq münasibətlərinin bu gün də etalon ola biləcək ictimai praktikasını yaratmış, Azərbaycan elminin yeni istiqamətlərini müəyyənləşdirmiş, bu sahələrin inkişafına nail olmuşdur. Əziz Əliyevin həyatını və fəaliyyətini əks etdirən tarixi sənədləri izlədikcə onun dərin təfəkkürünə, işgüzarlığına, ağır sınaqlardan mətanətlə çıxmasına heyran qalmamaq mümkün deyil. Bu böyük şəxsiyyətin bütün fəaliyyəti xalqa layiqli xidmət nümunəsi idi".***

Böyük alim, görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsi muxtar respublikada əbədiləşdirilmiş, Naxçıvan şəhərindəki küçələrdən birinə və Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına alimin adı verilmişdir.

65 illik bir ömür yaşamış Əziz Əliyev bir evə, bir ailəyə, bir ölkəyə sığmayan bəşəri bir şəxsiyyət, dünyanın bütün tərəqqipərvər xalqlarına eyni hörmət və məhəbbətlə yanaşan humanist insan idi. Görkəmli dövlət xadiminin həyatının bütün mərhələləri xalqımıza, dövlətçiliyimizə xidmət nümunəsi olmuşdur.

**"Şərq qapısı"**

# 2013-cü il nələrlə yadda qaldı?

***XXI əsrin on üçüncü ili min illərdir ki, yaşayan bir deyimin üstündən xətt çəkdi. Çoxlarının nəhs saydığı 13 rəqəmi uğurlar ili kimi muxtar respublikanın tarixinə yazıldı. Tarix üçün çox da böyük müddət olmayan bir ilin də necə gəlib keçdiyinin fərqinə vara bilməsək də, diyarımızın salnaməsinə həkk olunan saysız-hesabsız genişmiqyaslı quruculuq ərməğanları, unuda bilməyəcəyimiz xoş xatirələr bizimlə qalır.***

2014-cü ildə 2013-cü ili məhz böyük uğurları, həyatımıza gətirdiyi yenilikləri ilə xatırlamağa tam haqqımız var. Geriyə dönüb vidalaşdığımız ilə baxanda qəlbimizdə həmin hisslər baş qaldıracaq. Çünki yola saldığımız il hər birimizin həyatına ayrı-ayrı izlər salıb, həyatımızı daha firavan edib. Hər il olduğu kimi, ötən il də muxtar respublikada infrastrukturun yenidən qurulması, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilib, hər bir sahədə nailiyyətlər əldə edilib. İqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılmasının müsbət nəticələri 2013-cü ildə bir qədər də artıb. Qeyd etmək yerinə düşər ki, regionda sistemli və davamlı xarakter alan quruculuq tədbirləri muxtar respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edib. Bu da, son nəticədə, insanların rahat, firavan yaşamasına səbəb olub. Odur ki, bu işlərin bəhrələri yaşadıqca 2013-cü il də ömür kitablarımızda yaşayacaq, tariximizdə vərəqlənəcək, tariximizi yaşadacaq. Bizdən sonrakı nəsillər də tariximizin bu səhifəsini ən qiymətli salnamə kimi dəyərləndirəcəklər. Söhbətimin əvvəlinə qayıdaraq düşünürəm ki, sözün həqiqi mənasında, 365 günün necə başa çatdığını bilmədik.

Bunun səbəbini geniş izah etməyə bir o qədər də ehtiyac yoxdur. Çünki "Heydər Əliyev ili"ndə xalqımızın minilliklər boyu yaratdığı dəyərləri yaşatmaq, gələcək nəsillərə olduğu kimi miras qoymaq üçün möhtəşəm tədbirlər həyata keçirildi. Bununla yanaşı, neçə illərdir ki, muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq işləri öz axarı ilə davam etdirildi. Belə tədbirlər diyarımızın tarixinə bir sıra yeniliklər yazdı. Bu yeniliklərə blokada şəraitində nail olmağı təsəvvür etmək çətin deyil. Ancaq muxtar respublika sakinləri 2013-cü ildə də bir daha gördülər və yəqin etdilər ki, bu qədim diyarda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı və diqqət günümüzün reallığına çevrilib. Bu reallığı hər addımda, ilin ilk günündən sonuncu gününə qədər gördük. Qurub-yaratmaq istəyimizi gücləndirən başlıca amil də məhz bu reallığı yaşamağımızdır. Kimlərəsə bu, təəccüblü görünə bilər. Əsl həqiqətdə də belədir. Muxtar respublikaya ölkəmizin digər bölgələrindən, xarici ölkələrdən gələn qonaqlar qədim diyarın belə intibaha qovuşmasına inana bilmirlər. Bunun təməlində isə ulu keçmişə ehtiram, sabaha cavabdehlik hissləri, düzgün seçilib müəyyənləşdirilmiş yol dayanır. Yadıma şairin misraları düşür:

*Gəl gör, necə bəzənib bu gün kəndim,*
*şəhərim,*
*Əriyibdi şam kimi daha qəmim, kədərim.*
*Nurludur gecələrin, işıqlıdır səhərin,*
*Hər dildə, hər ağızda dolaşır adım mənim,*
*Naxçıvandır nəfəsim, qolum, qanadım*
*mənim.*
*Ey Heydər məktəbinin şöhrətli qəhrəmanı,*
*Gülüstana döndərən sənsən Nəqşi-cahanı.*
*Ana kimi sevərək anamız Naxçıvanı,*
*Ən qədim diyar kimi qocaldırsan onu sən,*
*Günbəgün gəncləşdirir, ucaldırsan onu sən.*

Gülzarlıqlar, yaşıllıqlar, gözəlliklər diyarına çevrilən muxtar respublikada bərqərar olunmuş ictimai-siyasi sabitlik insanların həyata baxışlarını kökündən dəyişdirib. İnsanlar sosial-iqtisadi inkişafda başlıca amillər olan tikinti-quruculuq prosesləri, aqrar sahədə aparılan islahatların nəticələri, daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, həyatımızın bütün sahələrində – təhsil, mədəniyyət, səhiyyə, rabitə, nəqliyyat və digər sahələrdə qazanılan uğurları yüksək dəyərləndirirlər. İnsanların bu proseslərdə fəallığını isə yurdumuzu daha gözəl, daha füsunkar, iqtisadiyyatını güclənən bir diyar kimi görmək istəyinin ifadəsi kimi qiymətləndirmək olar. Bu, doğma Vətənə, onun daha işıqlı sabahına bağlılığın, yurdsevərliyin ən gözəl təcəssümüdür. Bütün bunları düşünərkən yadıma ümummilli liderimizin sözləri düşür: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"***. Bu gün ulu öndərin planlarının, arzularının yerinə yetirildiyini bu qədim torpağın istənilən ünvanında görmək olar. Bu plan və arzuların yerinə yetməsi isə inkişafın möcüzə təsiri bağışlayan ifadəsi, bu günün reallığıdır.

2014-cü ilin ilk günlərini yaşayırıq. Necə qarşıladıq növbəti ili? Dükan-bazarlarımızda bolluq, çöhrələrdə təbəssüm, qəlblərimizdə sevinc, diləklərimizdə yurdumuzda belə günlərin əbədi olması istəyi ilə. Bu əbədiliyə bütün varlığımızla inanırıq. Çünki min illərdir, hər açılan sabah həyatın davamı olub. Bu həyat, bu yaşam möhkəm özüllər üzərində qurulubsa, onun gələcəyi gözlənildiyindən də yaxşı olacaq. Bu mənada 2013-cü ilin uğurları 2014-cü ilin daha yüksəliş ili olacağına möhkəm inam yaradıb. Hər şeydən əvvəl, ulu öndərin ideyalarının dönmədən həyata keçirildiyi, arzularının anbaan gerçəkləşdiyi muxtar respublikamızda 2014-cü il "Muxtariyyət ili" elan edilib. Elə muxtariyyətin qorunması ümummilli liderimizin uzaqgörən siyasətinin bəhrəsi deyilmi? Bu gün qədim diyarda nail olduqlarımızın təməlində məhz bu amil dayanır: ulu öndərin müəyyənləşdirdiyi siyasətə, xalqımızın böyük oğlunun bizə irs qoyduğu yola sədaqət və ehtiram. Qarşıladığımız ildə də ümummilli liderimiz Heydər Əliyevin ideyaları yolumuzu işıqlandıracaq. Bu yol əbədi yoldur.

**Muxtar MƏMMƏDOV**

# Milli tibbi kadrların yetişdirilməsində Əziz Əliyevin böyük rolu olmuşdur



***Yanvarın 1-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında görkəmli dövlət xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin anadan olmasının ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbiri xəstəxananın baş həkimi Rəhim Rəhimov açaraq böyük alim və görkəmli dövlət xadimi Əziz Əliyevin həyat və fəaliyyətindən danışmışdır.***

Xəstəxananın şöbə müdiri Aytən Əhmədova çıxış edərək professor Əziz Əliyevin Azərbaycan tibb elminin inkişafındakı xidmətlərindən bəhs etmişdir. Bildirilmişdir ki, ölkəmizdə milli tibbi kadrların yetişdirilməsi, eyni zamanda Azərbaycan dilində tibbi fənlərin tədrisi üçün dərs vəsaitlərinin yazılması Əziz Əliyevin adı ilə bağlıdır.

Əziz Əliyev 1941-ci ilin mayında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifəsinə seçilmişdir. Həm də görkəmli dövlət xadimi olan Əziz Əliyev 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, bundan sonrakı illərdə isə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru işləmiş, 1956-cı ildə isə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru olmuş və ömrünün sonuna kimi bu vəzifədə çalışmışdır.

Sonra tədbir iştirakçıları görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısının xəstəxananın qarşısındakı barelyefi önünə gül dəstələri qoymuşlar.

**Səbuhi HƏSƏNOV**

# Ali təhsil ocağında bayram tədbiri

Naxçıvan Dövlət Universitetində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə çıxış edən universitetin rektoru, professor Saleh Məhərrəmov ali təhsil ocağının tələbə və müəllim heyətini təbrik edərək bildirib ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və ənənəvi bayramlarımızdan birinə çevrilmiş Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan xalqının milli birliyini simvolizə edən tarixi əhəmiyyətli bir gündür. Rektor vurğulayıb ki, xalqımızın həmrəylik günü dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur.

Sonra səhnəyə Şaxta baba və Qar qız dəvət olunub. Tədbirin bədii hissəsində İncəsənət fakültəsinin tələbə və müəllimlərinin bir-birindən maraqlı ifaları alqışlarla qarşılanıb.

Tədbir universitetin Sosial Xidmət Mərkəzində süfrə arxasında davam etdirilib.

**Mina QASIMOVA**

# Ahıllar evində həmrəylik günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Ahıllar evində tədbir keçirilib. Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova və Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova çıxış edərək ahıllara göstərilən dövlət qayğısından danışmış, Ahıllar evinin sakinlərini bayramlar münasibətilə təbrik etmişlər.

Çıxışlarda vurğulanmışdır ki, muxtar respublikamızda bütün sahələrdə müşahidə olunan dinamik inkişaf və tərəqqi ahılların da sosial müdafiəsinin günbəgün güclənməsinə səbəb olmuşdur. Göstərilən sosial xidmətlərin səviyyəsi yüksəldilmiş, ahıl vətəndaşların cəmiyyətə inteqrasiya olunmaları istiqamətində həyata keçirilən tədbirlər intensiv xarakter almışdır. Ahıllar evində sakinlərin rahat və fəal həyat tərzində yaşamaları üçün hər cür şərait yaradılmışdır. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Evinin musiqi kollektivi konsert proqramı ilə çıxış etmiş, ahıllara bayram hədiyyələri təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor müavini: SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1